*“Bu Konvensiyanın və onun protokollarının məqsədi tütündən istifadənin yayılmasını və tütün tüstüsünün təsirini müntəzəm və əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə Tərəflərin milli, regional və beynəlxalq səviyyələrdə həyata keçirməli olduğu tütünə qarşı mübarizə tədbirləri üçün müvafiq çərçivələrin təmini yolu ilə indiki və gələcək nəsilləri tütündən istifadənin və tütün tüstüsünün insan sağlamlığı üçün dağıdıcı təsirindən, habelə sosial, ekoloji və iqtisadi nəticələrindən qorumaqdır”.*

*Maddə 3 (“Məqsəd”)*



*“Tərəflərdən hər biri bu Konvensiyaya və Tərəfi olduğu protokollara uyğun olaraq, tütünə qarşı mübarizə üzrə hərtərəfli çoxsektorlu milli strategiyaları, planları və proqramları hazırlayır, həyata keçirir, vaxtaşırı olaraq təzələyir və yenidən nəzərdən keçirir [...] Hər bir Tərəf səmərəli qanunvericilik, icra, inzibati və/və ya digər tədbirlər barədə qərar qəbul edir, bunları həyata keçirir və müvafiq hallarda tütündən istifadənin, nikotin asılılığının və tütün tüstüsünün qarşısının alınması və azaldılması ilə bağlı uyğun siyasətin işlənib hazırlanmasında digər Tərəflərlə əməkdaşlıq edir”.*

*5-ci Maddədən çıxarış (“Ümumi öhdəliklər”)*







Buklet Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində hazırlanmışdır.

Bukletdə dərc olunanlar Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyasının www.who.int/fctc rəsmi saytındakı məlumatlara əsaslanır.

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

**Bakı, AZ1122, Zərdabi küç., 96**
**Tel: 431-12-72, Faks: 430-52-85**
**office@isim.az   www.isim.az**

# TÜTÜNƏ QARŞI MÜBARİZƏ HAQQINDA ÜST-nin ÇƏRÇİVƏ KONVENSİYASI

## Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası nəyi təsvir edir?

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası (ÜST TMÇK) Ümumdünya Səhiyyə Təşkilatının himayəsi altında hazırlanan ilk sazişdir. O, Ümumdünya Səhiyyə Assambleyası tərəfindən 21 may 2003-cü il tarixdə qəbul edilmiş və 27 fevral 2005-ci il tarixdə qüvvəyə minmişdir. Həmin vaxtdan Konvensiya Birləşmiş Millətlər Təşkilatının tarixində ən geniş tanınmış sazişlərdən biri olmuşdur. 2010-cu ilin 3 sentyabr tarixinə olan vəziyyətə görə onun 171 Tərəfi vardır.

ÜST TMÇK-nın əsas müddəalarına aşağıdakılar daxildir:

• Tütünə tələbatın azaldılması (6-14-cü Maddələr)
(Əhatə edilir: qiymət və vergi tədbirləri; tütün tüstüsünün təsirindən qorunma; tütün məmulatının tərkibinin nizamlanması və tütün məmulatının tərkibinin açıqlanması; tütün məmulatının qablaşdırılması və markalanması; maarifləndirmə, informasiyanın ötürülməsi, əhalinin hazırlanması və məlumatlandırılması; tütün məmulatının reklamı, satışın stimullaşdırılması və sponsorluğu; tütündən asılılıq və tütündən istifadənin dayandırılması ilə bağlı tələbatın azaldılması tədbirləri.)

• Tütün təchizatının azaldılması (15-17-ci Maddələr)
(Əhatə edilir: tütün məmulatının qeyri-qanuni ticarəti; yetkinlik yaşına çatmayanlara və onlar tərəfindən satış; iqtisadi cəhətdən həyat qabiliyyəti fəaliyyətinin alternativ növlərinin dəstəklənməsi.)

Eləcə də Konvensiya digər zəruri sahələri əhatə edir, məsələn: məsuliyyət; tütünlə mübarizə sahəsində ictimai səhiyyə siyasətinin tütün sənayesinin maraqlarından qorunması; ətraf mühitin qorunması; milli əlaqələndirici mexanizmlər; beynəlxalq əməkdaşlıq, hesabat və məlumat mübadiləsi; təşkilati tədbirlər (5-ci və 18-26-cı Maddələr).

ÜST TMÇK tütün epidemiyasının qloballaşmasına cavab olaraq hazırlanmışdır. Tütün epidemiyasının yayılmasına transsərhəd nəticələr, o cümlədən ticarətin liberallaşması və birbaşa xarici investisiyalarla səciyyələnən bir çox mürəkkəb faktorlar şərait yaradır. Tütündən istifadənin miqyasının genişlənməsinə qlobal marketinq sistemi, transmilli reklam, transmilli səviyyədə satışın stimullaşdırılması və tütün məmulatlarının sponsorluğu, qaçaq mal və kontrafakt siqaretlərin beynəlxalq dövriyyəsi kimi digər faktorlar da təsir edir.

Tütünə qarşı mübarizə haqqında ÜST-nin Çərçivə Konvensiyası ictimai səhiyyənin gələcəyi üçün vacib mərhələdir və səhiyyə sahəsində beynəlxalq əməkdaşlıq üçün yeni hüquqi parametrləri təyin edir.

## Konvensiyanın xronologiyası

1996-cı il - Ümumdünya Səhiyyə Assambleyası tütünə qarşı mübarizə haqqında çərçivə konvensiyasının hazırlanması üçün təşəbbüs göstərir.

1999-cu il - Ümumdünya Səhiyyə Assambleyası Danışıqlar üzrə hökumətlərarası orqanı və texniki işçi qrupu təsis edir.

2000-ci il - Ümumdünya Səhiyyə Assambleyası çərçivə konvensiyasına dair danışıqların başlanması üçün zəmin yaradır.

2000-2003-cü illər - Danışıqlar üzrə hökumətlərarası orqan tərəfindən rəsmi tərtibat və razılaşdırma işlərinin aparılması.

21 may 2003-cü il - Ümumdünya Səhiyyə Assambleyası tərəfindən Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının qəbul edilməsi.

16 iyun 2003-cü il - Konvensiya imzalanma üçün açıq elan edilir.

29 noyabr 2004-cü il - 40 ratifikasiya (qüvvəyə minmək üçün tələb olunan say).

27 fevral 2005-ci il - Qüvvəyə minmə.

3 noyabr 2005-ci il - 100 Tərəf.

2006-cı il - Tərəflərin Konfransının keçirilməsi və Konvensiyanın Katibliyinin yaradılması.

3 sentyabr 2010-cu il - 171 Tərəf.

## Tərəflərin Konfransı

**Birinci sessiya:** 6-7 fevral 2006-cı il, Cenevrə, İsveçrə

**İkinci sessiya:** 30 iyun - 6 iyul 2007-ci il, Banqkok, Tayland

**Üçüncü sessiya:** 17-22 noyabr 2008-ci il, Durban, Cənubi Afrika

**Dördüncü sessiya:** 15-20 noyabr 2010-cu il, Punta-del-Este, Uruqvay



Gələcəkdə Tərəflərin növbəti Konfransları iki ildə bir dəfə keçiriləcək.

## 3 sentyabr 2010-cu il tarixə olan vəziyyətə görə Konvensiyanın Tərəfləri

(ratifikasiya, qəbul edilmə, təsdiqlənmə, rəsmi təsdiqlənmə və ya qoşulma ili göstərilməklə)

Albaniya Respublikası - 2006
Almaniya Federativ Respublikası - 2004
Anqola Respublikası - 2007
Antiqua və Barbuda - 2006
Avropa İttifaqı - 2005
Avstraliya Birliyi - 2004
Avstriya Respublikası - 2005
**Azərbaycan Respublikası - 2005**
Baham Adaları Birliyi - 2009
Banqladeş Xalq Respublikası - 2004
Barbados - 2005
Belorusiya Respublikası - 2005
Belçika Krallığı - 2005
Beliz - 2005
Benin Xalq Respublikası - 2005
Bəhreyn Krallığı - 2007
Birləşmiş Ərəb Əmirlikləri - 2005
Birləşmiş Tanzaniya Respublikası - 2007
Bolqarıstan Respublikası - 2005
Boliviya Respublikası - 2005
Bosniya və Herseqovina - 2009
Botsvana Respublikası - 2005
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı - 2004
Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi - 2005
Braziliya Federativ Respublikası - 2005
Bruney-Darussalam Sultanlığı - 2004
Burkina-Faso - 2006
Burundi Respublikası - 2005
Butan Krallığı - 2004
Cənubi Afrika Respublikası - 2005
Cibuti Respublikası - 2005
Çad Respublikası - 2006
Çernoqoriya Respublikası - 2006
Çili Respublikası - 2005
Çin Xalq Respublikası - 2005
Danimarka Krallığı - 2004
Dominika Birliyi - 2006
Ekvador Respublikası - 2006
Ekvatorial Qvineya Respublikası - 2005
Ermənistan Respublikası - 2004
Estoniya Respublikası - 2005
Əfqanıstan İslam Respublikası- 2010
Əlcəzair Xalq Demokratik Respublikası - 2006
Fici Adaları Respublikası - 2003
Filippin Respublikası - 2005
Finlandiya Respublikası - 2005
Fransa Respublikası - 2004
Gürcüstan - 2006
Hindistan Respublikası - 2004
Honduras Respublikası - 2005
Xorvatiya Respublikası - 2008
İordaniya Həşimi Krallığı - 2004
İraq Respublikası - 2008
İran İslam Respublikası - 2005
İrlandiya Respublikası - 2005
İslandiya Respublikası - 2004
İspaniya Krallığı - 2005
İsrail Dövləti - 2005
İsveç Krallığı - 2005
İtaliya Respublikası - 2008
Kabo-Verde Respublikası - 2005
Kamboca Krallığı - 2005
Kamerun Respublikası - 2006
Kanada - 2004
Keçmiş Yuqoslaviyanın Makedoniya Respublikası - 2006
Keniya Respublikası - 2004
Kipr Respublikası - 2005
Kiribati Respublikası - 2005
Kolumbiya Respublikası - 2008
Komor adaları İttifaqı - 2006
Konqo Demokratik Respublikası - 2005
Konqo Respublikası - 2007
Koreya Respublikası - 2005
Koreya Xalq Demokratik Respublikası - 2005
Kosta-Rika Respublikası - 2008
Kot Divuar - 2010
Kuk adaları (Yeni Zelandiyanın Əlaqəli ştatı) - 2004
Küveyt Dövləti - 2006
Qabon Respublikası - 2009
Qambiya Respublikası - 2007
Qana Respublikası - 2004
Qatar Dövləti - 2004
Qayana Kooperativ Respublikası - 2005
Qazaxıstan Respublikası - 2007
Qırğızıstan Respublikası - 2006
Qrenada - 2007
Qvatemala Respublikası - 2005
Qvineya-Bisau Respublikası - 2008
Qvineya Respublikası - 2007
Laos Xalq Demokratik Respublikası - 2006
Latviya Respublikası - 2005
Lesoto Krallığı - 2005
Liberiya Respublikası - 2009
Litva Respublikası - 2004
Livan Respublikası - 2005
Lüksemburq Böyük Hersoqluğu - 2005
Macarıstan Respublikası - 2004
Madaqaskar Respublikası - 2004
Malayziya Federasiyası - 2005
Maldiv adaları Respublikası - 2004
Mali Respublikası - 2005
Malta Respublikası - 2003
Marşall adaları Respublikası - 2004
Mavrikiy Respublikası - 2004
Mavritaniya İslam Respublikası - 2005
Meksika Birləşmiş Ştatları - 2004
Mərkəzi Afrika Respublikası - 2005
Mikroneziya Federativ Ştatları - 2005
Misir Ərəb Respublikası - 2005
Moldova Respublikası - 2009
Monqolustan - 2004
Myanma İttifaqı - 2004
Namibiya Respublikası - 2005
Nauru Respublikası - 2004
Nepal Federativ Demokratik Respublikası - 2006
Niderland Krallığı - 2005
Niger Respublikası - 2005
Nigeriya Federativ Respublikası - 2005
Nikaraqua Respublikası – 2008
Niue (Yeni Zelandiyanın Əlaqəli ştatı) - 2005
Norveç Krallığı - 2003
Oman Sultanlığı - 2005
Pakistan İslam Respublikası - 2004
Palau Respublikası - 2004
Panama Respublikası - 2004
Papua-Yeni Qvineya Müstəqil Dövləti - 2006
Paraqvay Respublikası - 2006
Peru Respublikası - 2004
Polşa Respublikası - 2006
Portuqaliya Respublikası - 2005
Ruanda Respublikası - 2005
Rumıniya - 2006
Rusiya Federasiyası - 2008
Samoa Müstəqil Dövləti - 2005
San-Toma və Prinsipin Demokratik Respublikası - 2006
Seneqal Respublikası - 2005
Sent Lusiya - 2005
Serbiya Respublikası - 2006
Seyşel adaları Respublikası - 2003
Səudiyyə Ərəbistanı Krallığı - 2005
Sinqapur Respublikası - 2004
Slovakiya Respublikası - 2004
Sloveniya Respublikası - 2005
Solomon adaları – 2004
Svazilend Krallığı - 2006
Sudan Respublikası - 2005
Surinam Respublikası - 2008
Suriya Ərəb Respublikası - 2004
Syerra-Leone Respublikası - 2009
Şöhrətli San-Marino Respublikası - 2004
Şri-Lanka Demokratik Sosialist Respublikası - 2003
Tayland Krallığı - 2004
Timor-Leşti Demokratik Respublikası - 2004
Toqolez Respublikası - 2005
Tonqa Krallığı - 2005
Trinidad və Tobaqo Respublikası - 2004
Tunis Respublikası - 2010
Tuvalu – 2005
Türkiyə Cümhuriyyəti - 2004
Ukrayna - 2006
Uqanda Respublikası - 2007
Uruqvay Şərq Respublikası - 2004
Vanuatu - 2005
Venesuela Bolivarian Respublikası - 2006
Vyetnam Sosialist Respublikası - 2004
Yamayka - 2005
Yaponiya - 2004
Yunanıstan Respublikası - 2006
Yeni Zelandiya - 2004
Yəmən Respublikası – 2007
Zambiya Respublikası - 2008

## Konvensiyanın Orqanları

### Tərəflərin Konfransı

Tərəflərin Konfransı ÜST TMÇK-nın rəhbərlikedici orqanıdır və ona Konvensiyanın bütün Tərəfləri daxildir. O, müntəzəm olaraq Konvensiyanın həyata keçirilməsini nəzərdən keçirir və onun səmərəli həyata keçirilməsinə kömək üçün lazımi qərarlar qəbul edir. Həmçinin Tərəflərin Konfransı Konvensiyaya dair protokolları, əlavələri və düzəlişləri qəbul edə bilir. Onun növbəti sessiyaları iki ildə bir dəfə keçirilir.

Tərəflərin Konfransı hər növbəti sessiyada Sədr və beş Sədr müavinini seçir. Hər biri ÜST-nin bir Regionunu təmsil edən bu vəzifəli şəxslər Tərəflərin Konfransının Prezidiumunu təşkil edirlər.

### Konvensiyanın Katibliyi

Konvensiyanın Katibliyi Konfransın Tərəflərinə və onun yardımçı orqanlarına xidmət edir. O, Konvensiyadan irəli gələn öhdəliklərə riayət olunmasında Tərəflərə yardım edir və Tərəflərin Konfransının qərarlarını müvafiq proqram tədbirlərinə çevirir. Katiblik öz fəaliyyətində ÜST-nin müvafiq departamentləri və digər beynəlxalq təşkilatlar və orqanlarla əməkdaşlıq edir.

## Həyata keçirmə vasitələri

### Protokollar

Tərəflərin Konfransı Konvensiyaya dair protokollar qəbul edə bilir. Bu və ya digər protokolun Tərəfləri yalnız Konvensiyanın Tərəfləri ola bilərlər. 2007-ci ildə Tərəflərin Konfransı tütün məmulatlarının qeyri-qanuni ticarəti haqqında Konvensiyaya dair birinci protokolun hazırlanması və razılaşdırılması üçün Danışıqlar üzrə hökumətlərarası orqanı təsis etdi. Gözlənildiyi kimi, Danışıqlar üzrə hökumətlərarası orqan bu protokolun layihəsini Tərəflərin Konfransının dördüncü sessiyasında təqdim edəcək (noyabr, 2010-cu il).

### Rəhbər prinsiplər

Tərəflərin Konfransının qəbul etdiyi rəhbər prinsiplərin məqsədi Konvensiyadan irəli gələn öhdəliklərə riayət olunmasında Tərəflərə yardım etməkdir. Onlar Tərəflərin Konfransının yaratdığı hökumətlərarası işçi qruplar tərəfindən tərtib edilir. 2010-cu ilin əvvəlinə olan vəziyyətə görə müvafiq rəhbər prinsiplər Konvensiyanın 5.3, 8, 11 və 13-cü Maddələri üzrə qəbul edilib. Bir sıra digər maddələr üzrə rəhbər prinsiplərin layihəsinə Tərəflərin Konfransının dördüncü sessiyasında baxılacaq.

### Hesabat işləri və məlumat mübadiləsi

Konvensiyadan irəli gələn öhdəliklərə riayət olunması işində öz potensialın gücləndirilməsi üçün Tərəflər bilavasitə və ya səlahiyyətli beynəlxalq orqanların vasitəçiliyi ilə əməkdaşlıq edirlər. Belə əməkdaşlıq milli strategiyaların, planların və proqramların hazırlanması və gücləndirilməsi məqsədi ilə texniki, elmi və hüquqi təcrübənin və texnologiyaların ötürülməsinə kömək edir.

### Yardımın digər mexanizmləri

İnkişaf edən ölkələrdən və iqtisadiyyatı keçid mərhələsindəki ölkələrdən olan Tərəflərə göstərilən yardımı xüsusi vurğulayaraq aşağıdakıları əhatə edir: ehtiyacların qiymətləndirilməsinin keçirilməsi, beynəlxalq səviyyədə mövcud resursların məlumat bazasının yaradılması, eləcə də maliyyələşdirmə, ölkələr səviyyəsində tütünlə mübarizə sahəsində siyasətin ahəngliyinə yardım və "Cənub-Cənub" əməkdaşlığının irəliləməsi üzrə layihə təkliflərinin hazırlanması.

## Müşahidəçilər

Konvensiyanın Tərəfi olmayan ÜST-nin hər hansı üzv dövləti, ÜST-nin hər hansı əlaqəli üzv dövləti və ya Konvensiyanın Tərəfi olmayan lakin Birləşmiş Millətlər Təşkilatının və ya onun xüsusi qurumunun, ya da Beynəlxalq Atom Enerjisi Agentliyinin üzv dövləti olan istənilən dövlət, eləcə də Maddə 1(b)-də qeyd edilən Konvensiyanın Tərəfi olmayan hər hansı regional iqtisadi inteqrasiya təşkilatı Tərəflərin açıq Konfrans iclaslarında və ya onun köməkçi orqanlarının iclaslarında iştirak edə bilər.

